

## ÜRVƏT ƏFQANOĞLU

### DURNALAR

Yenə nizamdasız, dəstə-dəstəsiz,
Görünür nə gözəl düzüm, durnalar.
Bir qanad saxlayın Şuşanın üstə,
Üç rəngli bayrağı süzün, durnalar...

Dumanları didin Cıdır düzündə,
Siz də yallı gedin Cıdır düzündə...
Vaqifi yad edin Cıdır düzündə,
Sevinə-sevinə gəzin, durnalar...

Qayalar başında hərdən edib yan,
Görün orda neçə igid verib can!
"Düşməni it kimi qovduq Şuşadan"
– Dedi qəhrəmanlar sözün, durnalar...

Şirin səsinizin artırın duzun,
Qaqqıldaşın bir az da uzun-uzun...
İsa bulağında cərgəni pozun,
Xəzəl yarpağını əzin, durnalar...

Əfqanoğlu deyər: Gözüm vətəndi,
Şeirim vətəndi, sözüm vətəndi...
Qonaq gəlin, vətən bizim vətəndi,
Şəhidlər veriblər izn, durnalar!

### QƏLƏBƏ MÜJDƏLİ ŞAİRƏM

Azərbaycan adlı şanlı dövlətin,
Qələbə müjdəli şairiyəm mən!
Bu gözəl, şərəfli xalqın, millətin
Qələbə müjdəli şairiyəm mən!

Daha xoşbəxtiyəm mən göyün, yerin,
Mənə yazılmamış varaqlar verin.
Başımda yatışmış min-min şeirin
Qələbə müjdəli şairiyəm mən!

Başı uca oldu ana yurdumun,
Gücünü gördülər o boz qurdumun.
Doğma Vətənimin, şanlı ordumun
Qələbə müjdəli şairiyəm mən!

Yazar sakiniyəm gecənin, danın,
Nəbzini tuturam bütün hər anın.
Doğma Şamaxının, azad Şuşanın
Qəbələ müjdəli şairiyəm mən!

### LAÇIN

Neçə il düşmənin əlində qalıb
Özü öz qəlbini oxladı Laçın.
Ordunun iyini duyub havadan
Ağlaya-ağlaya qoxladı Laçın!

Gecələr yatmayıb sıxdı gözünü,
Yollara küsgüncə tutdu üzünü...
«Belə getməyəcək» deyib özünü
Bu günə, bu ana saxladı Laçın!

Əfqanoğlu, səbir eylə zillətdə,
Böyük ruh yaşayır bizim millətdə...
Düz iyirimi səkkiz illik həsrətdə
Ümidini haqqa bağladı Laçın!

### QURU ÖMÜRDƏN KEÇDİ

Bahar çiçəyi açdı,
bu buzlanmış yollarım.
Yeyib bitirdi məni
quzğunlaşmış yollarım.

Dağ düşdü, dərə düşdü,
gündə bir şərə düşdü...
Zirzəmilərə düşdü
Mənim bu baş yollarım.

Xəyallarım bölüşdü,
arzularım gülüşdü...
Ürəklərdə ilişdi,
Getdiyim daş yollarım.

Daşdan, dəmirdən keçdi,
Girdi kömürdən keçdi...
Quru ömürdən keçdi,
Tutduğum yaş yollarım.

## PAYIZIN SAQQALI NƏ TEZ AĞARDI

Payızı anlamaq, düşünmək çətin,
Əvvəllər belə qar qışda yağardı.
Yolu hara döndü bu təbiətin?
Payızın saqqalı nə tez ağardı -
Əvvəllər belə qar qışda yağardı...

Yarısarı, yarı yaşıl yarpağın
Üstündə gəzişir qar dənələri.
Bilirəm indilər yaman üşüyür,
Armud ağacının incə əlləri -
Üstündə gəzişir qar dənələri...

Ey yetim bənövşə, bükük bənövşə,
Yəqin büzüşmüsən bir kol dibində.
Qəlbi, ruhu, canı sökük bənövşə,
Mənim bu ürəyim də qaldı səndə -
Yəqin büzüşmüsən bir kol dibində...

Gecikmiş yumurta qoyan quşcığaz,
Sənin də dərdinə əlac olmadı.
Gah yeri, gah göyü oyan quşcığaz,
Qanadlan, daha bir ümid qalmadı -
Sənin də dərdinə əlac olmadı...

Ey boz qurd, nə haray salmısan yenə?
O qarlı dağlarda sakitləş bir az.
Hərdən bir qulaq ver çoban səsinə,
Əlinə düşəni xırdala az-az -
O qarlı dağlarda sakitləş biraz...

## ƏS, EY PAYIZ KÜLƏYİ

Əs, ey payız küləyi,
Sevgilimə bənzə, sarı-sarı əs:
Saçlarını qarışdır,
Üzünü sığalla, ona sarı əs...

Əs, ey payız küləyi,
Bir az dolan gözlərimin içində:
Al ağrımı-acımı,
Götür uzaqlara durna köçündə...

Əs, ey payız küləyi,
Vicdansıza vicdan ötür uzaqdan:
Dimdiyində, dişində,
Qeyrətsizə qeyrət yetir uzaqdan...

Əs, ey payız küləyi,
Soyuq ocaqlara bərəkət gətir:
Bir loğmana dön hərdən,
Ümidsiz xəstəyə hərəkət gətir...

Əs, ey payız küləyi,
Xəzəl yarpağını sal qabağına:
Təmizlə bu aləmi,
Pisliyi, çirkabı al qabağına...

## ATAM SAĞ OLAN İLLƏR

Gözümdə, könlümdədi,
Arxam dağ olan illər.
Ömrümün xoş çağları -
Atam sağ olan illər...

Ocağımız istiydi,
Bacası da tüstüydü;
Çörəyimiz hisliydi,
Atam sağ olan illər...

...Çayımız tutanda dəm,
Süfrəyə gəlirdik cəm;
Nə kədər vardı, nə qəm,
Atam sağ olan illər...

Sinəmə oxlar dəymiş,
Həyatdan qırıb əymiş;
Əbədi xatirəymiş -
Atam sağ olan illər...

## PAYIZ GÖRKƏMLİ QADIN

Bəxtindən gileylənmə,
Bəxtindən dəmli qadın;
Üzünə necə baxım,
Gözləri nəmli qadın?

Budağını nə əydi
Dərdin belə göyərdi?
Ürəyinə kim dəydi,
Baxışı qəmli qadın?

Hardan tapdı səni qış?
Çölündən yol da salmış;
Quruca daşı qalmış,
Taleyi kəmli qadın!

Xəlvət qaçıb gəlirdim,
Nisgilini silirdim;
Səni bahar bilirdim,
Payız görkəmli qadın!